# Qarabağ və Şərqi Zəngəzurdan işıqlı xəbərlər gəlir

## İşğaldan azad edilmiş ərazilərdə daxili tələbatdan çox elektrik enerjisi istehsal olunur

**Ermənilərin 30 il işğal altında saxlayıb viran qoyduqları ərazilər indi tikinti-quruculuq meydanına çevrilib. Prezident İlham Əliyev tarixi 44 günlük Zəfərdən sonra dərhal bəyan etmişdi ki, biz bu torpaqları tezliklə cənnətə çevirəcəyik. Dövlət başçısı həmişə olduğu kimi, bu vədini də yerinə yetirir.**

Hazırda Qarabağ və Şərqi Zəngəzurda nəhəng sosial infrastruktur layihələri icra olunur. Paralel olaraq, dağıdılmış şəhərlər və kəndlər yenidən qurulur. Başqa sözlə, işğaldan azad edilmiş ərazilərimiz əvvəlkindən də yaxşı hala gətirilir.

Qarabağ və Şərqi Zəngəzurda yaşayış şəraitinin yaradılması üçün ilk növbədə sosial infrastruktur bərpa olunur. Çünki bunsuz görülən işlər yarımçıq sayılardı. Digər tərəfdən, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtmaları ilə bərabər, bölgənin iqtisadi potensialından ölkənin ümumi inkişafı üçün istifadə etmək barədə qərar verilmişdir. Bu qərarın icrası sayəsində işğaldan azad edilən ərazilərdə bərpa-quruculuq işləri başa çatmasa da, onun enerji potensialından ölkənin mənafeyi üçün istifadə olunur.

Kiçik Qafqaz dağ silsiləsində formalaşan çaylar üzərində su-elektrik stansiyalarının inşası sistemli şəkildə davam edir. Təkcə son bir ildə 9 su-elektrik stansiyası tikilib. Ümumilikdə isə indiyədək ümumi gücü 270 MVt olan 32 su-elektrik stansiyası istismara verilib.

Ötən il sentyabrın 2-də açılışı olan "Zar" Kiçik Su-Elektrik Stansiyasının (KSES) gücü 4,3, "Toğanalı" Kiçik Su-Elektrik Stansiyasının gücü 4,1 MVt-dır. Onların istismara verilməsi regionun "yaşıl enerji" potensialını bir daha ortaya qoyub. Bu stansiyalarda ən müasir texnologiyalardan istifadə edilməklə turbin, generator və məsafədən idarəetmə üçün rəqəmsal avadanlıqlar quraşdırılıb. Stansiyalar 24 damarlı fiber-optik kabel xətləri ilə ölkənin mərkəzləşmiş optik kabel şəbəkəsinə və SCADA sisteminə inteqrasiya olunub. "Zar" və "Toğanalı" KSES-lərdə ümumilikdə 25 milyon kilovat-saatadək "yaşıl enerji"nin istehsal olunması nəzərdə tutulur ki, bu da 5,5 milyon kubmetr təbii qaza qənaət edilməsi, 10 min tondan çox karbon emissiyasının qarşısının alınması deməkdir.

Ötən il Qarabağ və Şərqi Zəngəzurdakı 32 su-elektrik stansiyasında 550 milyon kilovat-saatadək ekoloji cəhətdən təmiz "yaşıl enerji" istehsal olunub. Həmin enerjinin üçdəbiri, yəni 200 milyon kilovat-saata yaxını işğaldan azad edilən ərazilərin enerji tələbatını ödəyib, qalan üçdəiki hissəsi isə ölkənin enerji sisteminə ötürülərək digər regionların tələbatına yönləndirilib. Nəticədə, 120 milyon kubmetr təbii qaza qənaət edilib, 225 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınıb.

Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji" zonasına çevrilməsi çərçivəsində işlər ardıcıllıqla davam edir. Cari ildə daha 11 su-elektrik stansiyasının açılışının planlaşdırılması da bunu təsdiqləyir. Ümumilikdə isə növbəti illərdə əlavə olaraq 200 MVt-lıq su-elektrik stansiyalarının tikilməsi nəzərdə tutulur.




"Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"da qeyd edilir ki, 2024-2040-cı illəri əhatə etməklə ölkədə su ehtiyatlarının səmərəli istifadəsi, idarə edilməsi və çirklənməsinin qarşısının alınması, dəniz suyunun duzsuzlaşdırılması, suvarma sistemlərinin modernləşdirilməsi, habelə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının su ehtiyatlarından istifadə edilməsinə dair tədbirləri nəzərdə tutulur. Həmin strategiyaya uyğun Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının su ehtiyatlarından və hidroenerji potensialından "ağıllı su" sistemlərinin tətbiqi ilə rasional istifadə təmin ediləcək.

Bununla yanaşı, Qarabağ və Şərqi Zəngəzurda görülən işlər sayəsində sağlamlıq, sahil və su turizmi imkanları üzrə qiymətləndirmə aparılacaq, əhalinin içməli su ilə təchizatının daha da yaxşılaşdırılması, əkin sahələrinin suvarma suyuna olan tələbatının ödənilməsi və su ehtiyatları potensialından səmərəli istifadə edilməsi hövzələrarası su transferini həyata keçirməyə imkan verəcək. Bunun sayəsində sözügedən iqtisadi rayonlarda 300 min hektardan çox torpaq sahəsi suvarma suyu ilə təmin ediləcək.

Qarabağ və Şərqi Zəngəzurun enerji potensialı təkcə su-elektrik stansiyalarından ibarət deyil. Zəngilan və Cəbrayılda daha çox enerji istehsal etmək gücündə olan külək və günəş-elektrik stansiyaları da tikiləcək. Bu, ölkəmizə "yaşıl enerji"yə keçməklə yanaşı, ixrac potensialını artırmağa da imkan verəcək.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 19 yanvar ( № 12).- S.3.